# Böyük şairin yubileyi münasibətilə 6500 ağac əkildi

Klassik Azərbaycan poeziyasının görkəmli simalarından biri, böyük şair və mütəfəkkir



İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bir gündə 650 min ağac əkilməsi təşəbbüsü respublikamızın hər yerində olduğu kimi, Qəbələ rayonunda da böyük rəğbətlə qarşılanıb. Bu təşəbbüs eyni zamanda dahi şairin xatirəsinə yüksək ehtiram kimi dəyərləndirilmişdir. Hələ oktyabr ayından başlayaraq genişmiqyaslı ağacəkmə kompaniyasına ciddi hazırlıq işləri görülüb. Ağac əkiləcək ərazilər müəyyənləşdirilib. Həmin ərazilər hamarlanıb qaydaya salınıb, çalalar qazılıb, su xətləri çəkilib.

Dekabr ayının 6-da yüzlərlə Qəbələ sakini ağac əkini üçün nəzərdə tutulmuş əraziyə toplaşıb. Qısa müddətdə təyin olunmuş ərazilərə 6500 ədəd rayonun iqliminə uyğun ağac tingləri basdırılıb, əkilmiş ağaclara lazımı qulluq göstərilib.



Ağacəkmə aksiyasında Azərbaycan Resublikası Prezidenti Administrasiyası Ərazi-təşkilat şöbəsinin sektor müdiri Rüfət Əliyev, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, rayon hüquq-mühafizə orqanlarının, digər idarə və müəssisələrin rəhbərləri iştirak etmiş, ağac əkmişlər.

Qeyd edək ki, Qəbələ sakinləri ağacəkmə kompaniyasına çox böyük həvəslə qoşulublar. Onlar bilir ki, yaşıllıqlar planetimizin ağ ciyəridir. Gələcək nəsillər üçün yaşıllıqların qorunması və artırılması çox vacibdir. Digər tərəfdən turizm diyarı kimi gündən-günə məşhurlaşan Qəbələnin əsas gözəlliyi və cəlbediciliyi, yaşıllıqlarla, meşələrlə və bağlarla bağlıdır. Bu gözəlliyin daha da artırılması prosesində iştirak etmək hər bir Qəbələ sakininin üreyincədir.



"Qəbələ"
İlkin Vəlizadə (Foto)

# Ekosahibkarlığın inkişafına dəstək məqsədilə ağacəkmə aksiyası keçirilib

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə dekabrın 10-da Qəbələ rayonunun Mıxlıqovaq kəndi ərazisində bal verən ağacların əkilməsi ilə əlaqədar kütləvi aksiya keçirilib. Yüzlərlə könüllünün qatıldığı kütləvi aksiya zamanı 7000 ədəd akasiya ağacı əkilib.



Tədbir IDEA İctimai Birliyinin ölkədə ekosahibkarlığın inkişafına dəstək layihəsi çərçivəsində təşkil edilib. Layihənin məqsədi biomüxtəlifliyin qoruyucusu olan arıların Azərbaycanda arealını artırmaq, eyni zamanda, ölkədə arıçılığın inkişafına dəstək verilməsindən ibarətdir. Bu xüsusda, nektar və çiçək tozu verən ağaclardan ibarət meşə sahələrinin artırılması ilə yanaşı, gənc ailələr üçün arıçılıq üzrə təlimlərin təşkil edilməsi, onlara bu istiqamətdə dəstəyin göstərilməsi nəzərdə tutulur.





Arı və digər tozlandırıcıların biomüxtəlifliyin mühafizəsində oynadığı vacib rol nəzərə alınaraq, arıçılıq kənd təsərrüfatının ekoloji baxımdan ən təhlükəsiz və faydalı növü hesab edilir. Bal verən arılar bitkilərin tozlanmasında fəal iştirak edərək onların məhsuldarlığını artırır və davamlılığını yüksəldir. Bitki aləminin inkişafı və arıların varlığı bir-birindən asılıdır. Arılar və bəzi başqa həşəratlar bitkiləri tozlandıraraq təkcə bitkilərin fərdi bərpasını yox, həm də müəyyən növlərin inkişafını təmin edir.

"Qəbələ"

# Ulu öndərin anım günü qeyd olunub

Qəbələ Rayon Müalicə Diaqnostika mərkəzində ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbir iştirakçıları ümummilli liderin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Tədbiri giriş sözü ilə açan mərkəzin direktoru Ceyhun Əhmədov ulu öndərin siyasi fəaliyyəti barədə məruzə etmişdir. Tədbirdə mərkəzin direktor müavini Kamal Məmmədov, həkim Səbinə Məmmədova çıxış edərək xalqımızın xilaskar oğlu dahi lider Heydər Əliyevin səhiyyənin inkişafına daim diqqətlə yanaşdığı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi və kadr potensialının yetişdirilməsi işinin qayğısına qaldığı diqqətə çatdırılmışdır.

Qeyd olunub ki, ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycanın səhiyyə sistemində aparılan uğurlu islahatlar, tibb müəssisələrinin maddi-texniki bazalarının təkmilləşdirilməsi, təchizat və kadr hazırlığı ilə bağlı görülmüş işlər bu sahəyə göstərilən diqqətin bariz nümunəsidir.

«Qəbələ»

# Ehtiramla yad edilib

Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar şəhər 2 nömrəli tam orta məktəbdə tədbir keçirilmişdir. Tədbibri giriş sözü ilə məktəbin direktoru Təranə Səlimova açmış, ümummilli liderin siyasi fəaliyyəti barədə geniş məlumat vermişdir. O bildirmişdir ki, Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün dünyada tanınan lider olmuşdur. Onun Azərbaycana rəhbərlik etdiyi illər Azərbaycan tarixinin qızıl dövrü adlandırılır. Bu gün bütün sahələrdə qazandığımız nailiyyətlər onun yolunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir.

Tədbir məktəbin VII a və IX b sinif şagirdlərinin hazırladığı



ədəbi-bədii kompozisiya ilə davam etdirilmişdir. Ulu öndərə, Vətənə həsr olunmuş şeirlər səsləndirilmişdir.

Tədbir dahi rəhbərin siyasi fəaliyyətini əks etdirən video çarxın nümayişi ilə başa çatdırılmışdır.

**Təhminə MİRZƏLİYEVA, məktəbin müəllimi.**